Bu iki şey ümmətimin kişilərinə haram, qadınlarına isə halaldır

Əli ibn Əbi Talibdən (Allah ondan razı olsun) belə söylədiyi rəvayət edilir: Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) sol əli ilə ipək və sağ əli ilə qızıl götürdü, sonra əllərini qaldırıb dedi: "Bu iki şey ümmətimin kişilərinə haram, qadınlarına isə halaldır".

[Səhih] [رواه أبو داود والنسائي وابن ماجه]

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) sol əli ilə ipək paltar və ya ondan bir parça götürdü və sağ əli ilə qızıl zinət əşyası və ya buna bənzər bir şey götürdü və sonra dedi: Kişilərə ipək və qızıl geyinmək haram, qadınlara isə bunlar halaldır.

http://www.sunnah.global/hadeeth/az/show/4292